# "Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının silsilə tədbirləri davam edir

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən tədbirlər planına uyğun olaraq silsilə tədbirlər həyata keçirilir.

Tədbirlər planı çərçivəsində mayın 3-də YAP Veteranlar Şurasının üzvlərinin partiyanın Sumqayıt Şəhər Təşkilatının inzibati binasında gənclərlə görüşü keçirilib. Tədbirdə YAP-ın Sumqayıt şəhər və Qubadlı rayon təşkilatlarının üzvü olan fəal gənclər iştirak ediblər. Görüşdə YAP Sumqayıt Şəhər Təşkilatının sədri, partiyanın İdarə Heyətinin üzvü Ramiz Hüseynov, YAP Veteranlar Şurasının üzvü Sudeyf İmamverdiyev, YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov, YAP Qubadlı Rayon Təşkilatının sədri Təhmasib Rüstəmov çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs ediblər. Vurğulanıb ki, milli sərvətimiz olan Heydər Əliyev ideyalarının gənc nəslə aşılanması mühüm əhəmiyyətə malikdir.

Tədbirlər planı çərçivəsində mayın 3-də partiyanın Ağcabədi və Suraxanı rayon təşkilatları tərəfindən tədbirlər keçirilib. Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - Ağcabədi rayonunda YAP Ağcabədi Rayon Təşkilatının sədri Rövşən Əhmədov, YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov, Milli Məclisin deputatı Aqil Abbas, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Suraxanı rayonunda YAP Suraxanı Rayon Təşkilatının sədri Vüqar Seyidov, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov və başqaları çıxış ediblər. Çıxışlarda Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən və əbədiyaşar ideyalarından, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən bəhs edilib. Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

Azərbaycan.- 2023.-4 may.- S.10.